# Sığorta fəaliyyəti genişləndirilir

Ölkəmizdə son illər sığorta siyasətinin inkişafına, onun hüquqi bazasının gücləndirilməsinə və insanların sığortaya maraq və inamının artırılmasına xüsusi önəm verilir. Dövlətin iqtisadi siyasətinin tərkib hissəsinə çevrilən sığorta sektorunun inkişafı ilə bağlı son 13 ildə çox mühüm qanun və qərarlar qəbul edilmiş və onların icrası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Həmin hüquqi aktlardan biri olan «Sığorta haqqında» Qanun Azərbaycanda, o cümlədən Qəbələdə sığorta fəaliyyətini xeyli artırmış və insanlar tərəddüd etmədən malını, əmlakını, nəqliyyat vasitələrini sığorta etdirirlər. Bu qanunun qəbulunda məqsəd ölkəmizdə sığorta sisteminin hüquqi bazasını beynəlxalq prinsiplərə uyğunlaşdırmaqdan, sığorta sektorunda dövlət nəzarətini gücləndirməkdən ibarətdir.

Hazırda ölkəmizdə fəaliyyət göstərən sığorta şirkətləri və onların əyalətləri əhatə edən filialları Avropa sığorta bazarının inkişaf modeli üzərində qurulub. İndi insanlar 30-a yaxın sığorta növündən yararlana bilirlər. Əlbəttə, qəbul edilmiş qanunlar da bu modelə əsaslanıb. Qeyd olunan qanunla sığorta şirkətlərində bədbəxt hadisədən sığortalanma, sığorta riski, ümumi sığorta və digər sığorta qaydaları müəyyənləşdirilmişdir. Bədbəxt hadisədən sığortalanma sığortalının ölümü, onun sağlamlığının, iş qabiliyyətinin tamamilə və ya qismən itirdiyi hallar üçün aparılan sığorta növüdür. Sığortanın bütün növləri qanunlar çərçivəsində tənzimlənir.

Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin Qəbələ filialı da son vaxtlar öz fəaliyyətini, sığorta sisteminin genişləndirilməsi, əhali arasında sığorta maarifinin və vərdişinin yetərincə formalaşması istiqamətinə yönəltmişdir. Yerli icra nümayəndələri və bələdiyyə qurumları ilə birgə həyata keçirilən tədbirlər öz müsbət nəticəsini verir, vətəndaşlar sığortanın və sığortalanmanın əhəmiyyətini dərk edir. Eyni zamanda vaxtilə sığorta sistemində buraxılan nöqsanlar aradan qaldırılır, insanlarda sığortalanmaya inam günbəgün artır. Qəbələ filialı bu gün öz fəaliyyət dairəsini xeyli genişləndirmiş, rayonda sığorta olunan vətəndaşların sayı artmış, sığorta haqqının toplanışında dönüş yaranmışdır. Bunu sığorta haqqının toplanışındakı fərqli rəqəmlər də təsdiqləyir. Sığorta haqqının məbləği cari ilin 9 ayında 27 min manata çatdırılmışdır. Nəzərə almaq lazımdır ki, bu məbləğin əsas hissəsi avtonəqliyyat vasitələrinin və əmlak sığortası növlərinin payına düşür. Rayonda sığortalanma işinə Qəbələ şəhərinin, Bum, Nic qəsəbələrinin və Mıxlıqovaq kəndinin sakinləri daha çox maraq göstərir. Həmin yaşayış məntəqələrinin əhalisi daşınmaz əmlakın, avtonəqliyyat vasitələrinin icbari və könüllü sığortalanmasına xüsusi əhəmiyyət verirlər.

Biz vaxtaşırı vətəndaşlarla sıx əlaqə saxlayır, insanların sığortalanmaya inamını formalaşdırırıq. Sığortanın dara düşdüyü zaman insanların karına gəldiyini, dəymiş maddi zərərin aradan qaldırılmasına kömək göstərməklə böyük əhəmiyyət daşıdığını diqqətə çatdırırıq. Hazırda filial əhaliyə məxsus olan avtomaşınların, evlərin, əhalinin qiymətli mebel və audio-video cihazlarının, kənd təsərrüfatı bitkilərinin, ev heyvanlarının sığortalanmasına xüsusi əhəmiyyət verir.

İnamla deyə bilərəm ki, vətəndaşlar tərəddüd etmədən malını, əmlakını, maşınını, sağlamlığını, hətta hazırlaşdığı səyahət səfərlərini bizim filialda sığorta etdirə bilərlər.

Biz də öz növbəmizdə hər bir vətəndaşa məsləhət görürük ki, həyatınızı, sağlamlığınızı, xeyli pul və zəhmət bahasına tikilmiş evlərinizi, nəqliyyat vasitələrinizi sığorta mühafizəsi ilə əhatə etdirin, sığorta şəhadətnaməsinə sahib olun.

✍ **Allahverdi ƏFƏNDİYEV,**
**rayon dövlət sığorta idarəsinin direktoru.**

# Şahmat üzrə rayon turniri

8 noyabr 2016-cı il tarixdə uşaq və yeniyetmələr arasında Qəbələ Rayon Gənclər və



İdman İdarəsinin təşkilatçılığı ilə 9 noyabr Dövlət Bayrağı Gününə həsr edilmiş şahmat turniri keçirilmişdir.

Turnirin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək yarış iştirakçılarını salamlamış, onlara bu idman yarışında uğurlar arzulamışdır. Fəxri Soltnaov yarış iştirakçılarına Dövlət bayrağının, Dövlət Bayrağı Gününün yaranma tarixi barədə məlumat verərək bildirmişdir ki, bu bayram Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən qeyd edilir.

Fəxri Soltanov turnirin keçirilməsində məqsədin eyni zamanda yarış iştirakçılarının idman ustalıqlarının artırılması və təkmilləşdirilməsinin təmin edilməsi, şahmatın kütləviliyinə nail olunması və rayonun yığma komandasının tərkibinin müəyyənləşdirilməsindən ibarət olduğunu bildirmişdir.

Turnirdə rayonun şəhər, qəsəbə və kənd məktəblərindən olan 40 nəfər uşaq və yeniyetmə şahmatçı 8-10-12-14 və 16 yaş qruplarında dairəvi sistem üzrə gərgin oyun nümayiş etdirmişlər.

Turnirin yekununa əsasən müvafiq yaş qrupları üzrə Ümid Abdulkərimli, Məmmədəmin Tağıyev, Nurlan Hümbətli, Sabir Abdullayev və Həqiqət Tağıyeva birinci yerə çıxmışlar.

Hər yaş qrupunda I, II və III yeri tutan qaliblərə rayon gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

✍ **Müşfiq ABBASOV,**
**gənclər və idman idarəsinin rəis müavini.**

# Dünya Elm Günü

Noyabrın 10-u Dünya Elm Günüdür. UNESCO-nun qərarı ilə təsis edilən bu tarix cari ildə "Sülh və inkişaf naminə" devizi altında keçirilir. Bu deviz elmi inkişaf, yeni nailiyyətlər və insanların dünyagörüşünün genişləndirilməsi istiqamətində elm adamlarının gördükləri işlərlə əhalini məlumatlandırmaq, cəmiyyətin dayanıqlılığını artırmaq məqsədi daşıyır.

İlk dəfə 2002-ci il noyabrın 10-da keçirilən və həmin vaxtdan etibarən hər il bütün dünyada qeyd olunan Dünya Elm Gününün qayəsi beynəlxalq və milli səviyyədə elmin rolunu yüksəltmək, eləcə də elmin nəticələrinin cəmiyyətin dinc, sabit inkişafına təsirini artırmaqdır. Dünya Elm Günü UNESCO-nun təşkilatçılığı ilə keçirilən elmi iclas, seminar, konfrans və festivallarla qeyd olunur.

Bir çox yerlərdə olduğu kimi, bizim ölkəmizdə də bu bayram geniş qeyd olunur. Çünki Azərbaycan dünya elminə böyük töhfələr bəxş edən dövlətlər sırasındadır və ölkəmizdə elm, təhsil sahəsində əhəmiyyətli nailiyyətlər qazanılıb.

Bu il respublikamızın elmi ictimaiyyəti Dünya Elm Gününü ikinci Azərbaycan Elm Festivalının keçirilməsi ilə qeyd edib.

Respublikamız və elmimiz üçün böyük əhəmiyyət daşıyan, elmi nailiyyətlərin təbliğində önəmli yer tutan festivalın keçirilməsinin əsas məqsədi elmimizin bugünkü nailiyyətlərini geniş ictimaiyyətə tanıtmaq, müasir elmi bilikləri təbliğ etmək, gəncləri elmi fəaliyyətə cəlb etməklə elmi-tədqiqat işlərinə marağı artırmaq olub.

***"Qəbələ".***

# Uğur qazanmış cudoçularımız mükafatlandırılıblar

Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşəbbüsü, Gəncə şəhər Təhsil İdarəsinin 1 №-li Uşaq Gənclər İdman Məktəbinin təşkilatçılığı ilə Gəncə şəhərində, Dövlət Bayrağı Günü münasibəti ilə cüdo üzrə açıq birincilik yarışları təşkil olunub. Yarışda Qəbələ İdman Klubunun 28 idmançısı da öz qüvvəsini sınamışdır. Gərgin idman mübarizəsi şəraitində keçirilən yarışda rayonumuzu təmsil edən Qəbələ İdman Klubu cüdoçularının çıxışları uğurlu olub. Belə ki, idmançılardan səkkiz nəfəri birinci yerə, 5 nəfəri ikinci yerə, 8 nəfəri isə üçüncü yerə layiq görülüblər. Yarışda qalib gələn idmançılara hədiyyələr və fəxri fərmanlar təqdim olunub.



✍ **Tural BAĞIROV.**

# Qanvermə aksiyası keçirilib

"Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq Qəbələ rayonunda növbəti dəfə qanvermə aksiyası təşkil olunub. Müxtəlif qan xəstəliklərindən əziyyət çəkən insanlara kömək məqsədilə rayon mərkəzi xəstəxanasında "Qan ver, həyatı xilas et" şüarı ilə keçirilən humanitar aksiyada rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Aksiyada B. Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfiziologiya İnstitutu Mərkəzi Qan Bankının əməkdaşları qan vermək üçün müraciət edən vətəndaşları müayinə etdikdən sonra, könüllülərin 180 nəfərindən qan götürmüşlər. Tədarük olunan qandan hemofiliyalı və talassemiyalı, həmçinin qana ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə ediləcək.

✍ **Zahir KƏRİMOV.**